https://doi.org/10.59849/3006-1342.2024.1.52
UOT 94

*E.A.Məhərrəmov, Y.A.Bəhramov*
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*Bakı ş., H.Cavid pr., 115*
*E-mail: elmarmaharram@mail.ru*

# ZƏNGƏZUR FACİƏSİ HAQQINDA (1918-1919-CU ILLƏR)

*Məqalədə 1918-1919-cu illərdə Zəngəzur qəzasının müsəlman türklərinin (azərbaycanlıların) Ermənistan Respublikasının həm də Rusiya tərəfindən silahlandırılmış müxtəlif nizami ordu qüvvələri tərəfindən deportasiya və soyqırımına məruz edilməsi haqqında qısa məlumat verilir. 1918-1920-ci illər Zəngəzur faciəsi təkcə müsəlman əhalinin deportasiya olunması ilə bitmir. Bu faciənin dəhşətləri yerli əhalinin yaş həddi qoyulmadan hamısının rusların XIX əsrdə Azərbaycana köçürdüyü və silahlandırdığı haylar tərəfindən ucdantutma məhv edilməsi idi. Onların əsas məqsədi silahsız azərbaycanlı-türk əhalini ucdantutma milli soyqırımına məruz qoymaqdan ibarət idi. Sovet hakimiyyəti illərində bu mövzuda nəinki yazmağa, hətta danışmağa belə icazə verilmirdi. Lakin Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bu sahədə araşdırmalar aparılsa da, hələ bir çox məsələlərin araşdırılmasına böyük ehtiyac var. Mövzunun araşdırılmasını çətinləşdirən ən mühüm amillərdən biri Zəngəzurla bağlı arxiv sənədlərinin Moskvanın tələbi ilə məcburi qaydada Ermənistana verilməsidir. Bundan əlavə 1980-ci illərədək arxivlərdə işləyənlərin əksəriyyəti ruslar və ermənilər idi. Onlar da ərəb əlifbası ilə yazılmış dilimizdəki sənədləri yandırır və makulaturaya verirdilər. Bununla da tədqiqatçıların araşdırmaları süni yolla çətinləşdirilir, qarşısı alınırdı. Zəngəzur qəzasında erməni kəndlilərinin silahlı dəstələri ilə yanaşı, Andranik Ozanyanın başçılıq etdiyi ermənilərdən ibarət kifayət qədər təlim görmüş və silahlanmış hərbi qüvvəsi vardı və onların Türkiyədə köməksiz dinc əhaliyə qarşı müharibə aparmaq təcrübəsi var idi. Onlar Zəngəzurun bir çox kəndlərinin əhalisini qırmış, evlərini dağıtmışdılar. Zəngəzurda ermənilər rus, ingilis-fransız nümayəndə heyətlərindən lazımi təlimatlar alırdılar.*

*Açar sözlər:* Zəngəzur, Hortuyüz, Zabazadur, Sofulu, Rut, Dərəbas, Ağüdi, Vağudi, Ərikli, Şükar, Məlikli, Pulkənd, soyqırımı

1918-1920-ci illərdə ermənilər Zəngəzurda müsəlman əhalisinə qarşı qanlı qətliyam törədiblər, bu zaman həm də qəzanın qərb hissəsində bütün müsəlman kəndlərini məhv ediblər. Sonralar – sovet hakimiyyəti illərində bu kəndlərdən yalnız bir neçəsinin bərpasına icazə verilmişdi. Canlarını salamat qurtara bilənlər Naxçıvan kəndlərində və qismən də Zəngəzur qəzasının şərq hissəsində – Qubadlı, Laçın və Zəngilanda sığınacaq tapmışdılar. Lakin sovet hakimiyyəti illərində biz çoxsimalı ermənilərin vurduqları sağalmaz yaraları çox tez unutduq, indi artıq onları əvvəlkilərdən fərqli olan yeni bir simada – bizimlə "həmdərd", "həmməqsəd" olan bolşeviklərin qiyafəsində qəbul etdik. 1918-1920-ci illər Zəngəzur faciəsinin bu iki illik səhifəsini XIX-XX əsrlərin ümumi faciəsindən qoparıb ayırmaq çox çətindir. Bu faciə təkcə müsəlman əhalinin Zəngəzurdan deportasiya olunması ilə bitmir. Bu faciənin dəhşətləri bu gün "Ermənistan Respublikası" adlandırılan qədim Azərbaycan torpaqlarının hər yerində olduğu kimi, yerli müsəlman əhalinin böyüklü-kiçikli, uşaqlı-qadınlı, qocalı-cavanlı – hamısının ucdantutma qılıncdan keçirilməsi ilə müşayiət olunmasıyla yada düşür. Sovet hakimiyyəti illərində bu faciə xalqdan gizlədilirdi, amma indi artıq bu sahədə xeyli tədqiqatlar aparılmış, bir çox qaranlıq səhifələr açılmış, qırğınların təfərrüatı

öyrənilmişdir. Bununla belə, hələ çox səhifələrin açılmasına, öyrənilməsi və dəyərləndirilməsinə böyük ehtiyac var.

Ermənilərin özlərinin ifadələrinə görə onların əsas məqsədi heç də silahsız dinc azərbaycanlıları deportasiya etməkdən ibarət deyildi, onların qarşıya qoyduqları planları azərbaycanlı-türk əhalini ucdantutma qətliyama – milli soyqırımına məruz qoymaqdan – hamını qırıb qurtarmaqdan ibarət idi.

Sovet hakimiyyəti illərində bu mövzuda nəinki yazmağa, hətta danışmağa belə icazə verilmirdi. Lakin Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bu sahədə araşdırmalar aparılsa da, hələ bir çox məsələlərin araşdırılmasına böyük ehtiyac var. Mövzunun araşdırılmasını çətinləşdirən ən mühüm amillərdən biri Zəngəzurla bağlı arxiv sənədlərinin Moskvanın tələbi ilə məcburi qaydada Ermənistana verilməsidir. Bundan əlavə 1980-ci illərədək arxivlərdə işləyənlərin əksəriyyəti ruslar və ermənilər idi. Onlar da ərəb əlifbası ilə yazılmış dilimizdəki sənədləri yandırır və makulaturaya verirdilər. Bununla da tədqiqatçıların araşdırmaları süni yolla çətinləşdirilir və qarşısı alınırdı.

Ötən əsrin 20-ci illərinin əvvəllərində A.Lalayan adlı bir erməni tədqiqatçısı müsəlman türklərin kütləvi şəkildə fiziki cəhətdən məhv edilməsində şəxsən ayrıca “xidməti” olan və həmin soyqırımın bilavasitə iştirakçısı olmuş bir erməni başkəsəninin bu hadisələrin təsvirinə həsr etdiyi xatirələrindən parçaları çap edərək onu ifşa etmişdir. O, yazırdı: “Mən türk əhalini heç bir ayrı-seçkilik etmədən məhv edirdim. Amma bəzən adamın gülləyə heyfi gəlir. Bu itlərə qarşı ən yaxşı vasitə budur ki, onların sağ qalmışlarını döyüşdən sonra bir yerə yığıb, quyuya doldurasan, üstlərinə də ağır daşlar qoyasan ki, bu dünyada onlardan daha heç kim sağ qalmasın”. Bu bandit yazısının davamında bildirirdi ki, “mən elə belə də etdim. Sağ qalmış bütün kişiləri, qadınları və uşaqları bir yerə toplayıb məhv etdim, onları bir quyuya doldurub, üstlərinə də daş yığdım...” [17, s. 50].

Bu məsələ digər oxşar mövzular kimi sözügedən səbəbdən Azərbaycan tarixşünaslığında indiyədək lazımınca tədqiq olunmamışdır. Bu baxımdan məxsusən Zəngəzurla bağlı yazılmış əsərlərdən Əyyub Abbasovun ikicildlik “Zəngəzur” [2] romanını qeyd etmək olar. Bu əsər Azərbaycan və erməni xalqları arasında “dostluğun” gur inkişaf etdiyi 1957-1959-cu illərdə nəşr olunmuşdu və onun əsas ideya məqsədi Zəngəzurda sovet hakimiyyətinin qurulması uğrunda mübarizənin işıqlandırılması idi. Adı çəkilən əsər elmi-tədqiqat işi olmayıb, bədii xarakterli romandır. Elə bu səbəbdən də aydındır ki, burada sənədli bir məqamın üzə çıxarılması imkan xaricində idi.

Nə sovet hakimiyyəti illərində nəşr olunmuş 3 cildlik “Azərbaycan tarixi”ndə, nə də “Azərbaycan Sovet Ensiklopediyası”nda nəinki faciəsi haqqında, hətta Zəngəzur sözünün özü haqqında bir kəlmə də tapmaq mümkün deyil. Bu, bizim Zəngəzuru haylara “ürəkdən” bağışlamağımızın nəticəsindədir.

Tanınmış Azərbaycan tarixçisi Aydın Balayevin “Azərbaycan milli demokrat hərəkatı 1917-1920-ci illərdə” monoqrafiyasında Zəngəzur faciəsinə yolüstü 3 səhifəlik konkret təhlil verilmişdir [7, s. 49-52].

Erməni tarixşünaslığı nöqteyi-nəzərindən əlçatar tədqiqatlar baxımından diqqət çəkən işlərdən biri, bütün erməni xalqını öz ardınca uçuruma aparan bir ovuc avantüristin törətdiyi əməllərə görə erməni xalqına ittiham aktı kimi səslənən, “Daşnaksütyun” partiyasının əsasını qoymuş və keçmiş Ermənistan Respublikasının baş naziri olmuş Hovhannes Kaçaznuninin 1923-cü ilin aprelində xaricdə konfransda təqdim etdiyi “Daşnaksütyuna daha edəcəyi bir iş qalmadı” kitabıdır [16]. Hərçənd bu kitabın bizim mövzu ilə bilavasitə əlaqəsi yoxdur, bununla belə, o həmin dövrdə erməni xalqının azərbaycanlılara qarşı əhval-ruhiyyəsi və münasibəti haqqında daha ətraflı və dəqiq tanış olmağa imkan verir. Bu əsər bir çox mürəkkəb məsələlərə, xüsusilə də, ermənilərin qeyri-müstəqil olmaları məsələsinə işıq salır, alimlərə məlum olur ki, hələ XX əsrin əvvəllərində erməni xalqı Osmanlı imperiyasının

tədricən dağıdılması məqsədini güdən dövlətlər üçün, yəni türklərə qarşı ən əlverişli alət imiş [14]. Yeri gəlmişkən, elə ermənilərin özləri də bu niyyətə can atırmışlar. Məsələn, "Rusiya sözü"nün onlara ecazkar təsiri var imiş və onlar hər cür Rusiya məsləhətlərinə canı dildən baş əyirmişlər. Qeyd etmək yerinə düşər ki, Türkmançay müqaviləsinə uyğun olaraq ermənilərin Qacarlar imperiyasından Şimali Azərbaycana köçürülməsi zamanı Qacarlar hökumətinin Əsgərxan adlı bir məmuru ermənilərdən Rusiyanın "yeni vilayətinə" doğrudanmı könüllü köçürlər sualına onlar "Əlbəttə! Bizim üçün rus otunu yemək İran çörəyini yeməkdən daha yaxşıdır, – deyə cavab vermişdilər" [18, s. 176].

Demək yerinə düşər ki, o vaxt köçürülən ermənilərin bir qismi Zəngəzura – Qarakilsə, Təzəkənd, Ağkənd, Uz, Pirnəbi, Dulus, Əlili, Dərəbas, Əhlət, Şəki və b. kəndlərdə yerləşdirilirdilər.

Bunun ardınca ermənilər kənd adlarının dəyişdirilməsi əməliyyatına başladılar. Belə ki, Qarakilsənin adı əvvəlcə dəyişdirilib Sisavan, 1940-cı il martın 2-də isə Sisian qoyuldu. Elə həmin tarixdə də Sisian (kəndin adı buranın həmişə sisli, çənli olması ilə bağlıdır) kəndinin adı dəyişdirilib Hatsavan qoyuldu. XX əsrin 40-ci illərində Təzəkəndin adı hərfi tərcümə edilərək Tazagyuğ, 1968-ci il iyulun 3-də isə Tasik qoyuldu (addəyişmə siyahısı əlavə olunur).

**Azərbaycan kəndlərinin adlarının dəyişdirilməsi**

| № | Kəndin ilk adı | Erməniləşdirilmiş ad | Rayon | Ermənistan SSR Ali Sovetinin fərmanının tarixi |
|---|---|---|---|---|
| 1. | Gorus rayonu üzrə | | | |
| 2. | Ağbulaq | Məhv edilib | Gorus | 1918-ci il |
| 3. | Ağsu | Məhv edilib | Gorus | 1918-ci il |
| 4. | Bağırbəyli | Məhv edilib | Gorus | 1918-ci il |
| 5. | Ballıqaya | Məhv edilib | Gorus | 1918-ci il |
| 6. | Bayandur | Bağatur | Gorus | 07.05.1969 |
| 7. | Binayeri (Qaragədik) | Məhv edilib | Gorus | 1918-ci il |
| 8. | Birinci Alyanlı | Məhv edilib | Gorus | 1905-ci il hadisələrində |
| 9. | Dağ | Dığ | Gorus | İnqilabdan əvvəl |
| 10. | Əliqulu | Azataşen | Gorus | 01.06.1940 |
| 11. | Ərəfsə | Aravus | Gorus | 01.06.1940 |
| 12. | Gorus | Qoris | Gorus | 01.06.1940 |
| 13. | Xanzirək | 1.Xınzirək<br>2.Xnzoresk | Gorus | 1.İnqilabdan əvvəl<br>2. 1930-70-ci illər |
| 14. | Şəhərcik | Şğarşik | Gorus | – |
| 15. | Xot | Məhv edilib | Gorus | 1918-ci il |
| 16. | İkinci Alyanlı | Məhv edilib | Gorus | 1918-ci il |
| 17. | Kosalar | Məhv edilib | Gorus | 1918-ci il |
| 18. | Körün | Dzoraşen | Gorus | 19.04.1950 |
| 19. | Kürdlər | Məhv edilib | Gorus | 1918-ci il |
| 20. | Qaladərəsi | Qalidzor | Gorus | 1930-40-cı illər |
| 21. | Qurdqulaq | Vanand | Gorus | 1930-40-cı illər |
| 22. | Maldaş | Kaşuni | Gorus | 1930-40-cı illər |
| 23. | Muğancıq | Haygedazor | Gorus | 19.04.1950 |
| 24. | Şahverdilər | Məhv edilib | Gorus | 1918-ci il |

*Cədvəlin davamı*

| | | | | |
|---|---|---|---|---|
| 25. | Şamsız | Siyahıdan silinib | Gorus | 1930-40-cı illər |
| 26. | Şurnuxu | Məhv edilib | Gorus | 1918-ci il |
| 27. | Yayıcı | Qarjis | Gorus | 03.07.1968 |
| Qafan rayonu üzrə | | | | |
| 28. | Acıbac | Acabac | Qafan | 09.04.1991 |
| 29. | Axtaxana | 1.Xlatağ<br>2.Dzorastan | Qafan | 01.06.1940<br>1991-ci ildən sonra |
| 30. | Ağvana | Ağvani | Qafan | |
| 31. | Almalı | Məhv edilib | Qafan | 1948-ci il |
| 32. | Arxüstü | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 33. | Aşağı Girətağ | Nerkin Qirataq | Qafan | 1991-ci ildən sonra |
| 34. | Aşağı Gödəkli | Baqraşat | Qafan | 04.07.2006 |
| 35. | Aşağı Xotanan | Nerkin Xotanan | | |
| 36. | Aşağı Pürülü | Geğavank | Qafan | 09.04.1991 |
| 37. | Aşağı Yeməzli | Məhv edilib | Qafan | 1918-ci il |
| 38. | Atqız | Atkiz | Qafan | 1959 |
| 39. | Babayaqublu | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 40. | Bağırbəyli | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 41. | Baharlı | Siyahıdan silinib | Qafan | 1983cü ildə kənd ləğv edi-<br>lib, yerində su anbarı tikilib |
| 42. | Barabatum | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 43. | Baydaq | Siyahıdan silinib | Qafan | 1959 |
| 44. | Bəkdaş | Xordzor | Qafan | 09.04.1991 |
| 45. | Çiriş | Siyahıdan silinib | Qafan | 1930-cu illər |
| 46. | Çobanlı | Siyahıdan silinib | Qafan | 1940-cı illər |
| 47. | Çullu | Siyahıdan silinib | Qafan | 1930-cu illər |
| 48. | Daşbaşı | Siyahıdan silinib | Qafan | 1930-cu illər |
| 49. | Daşnov | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 50. | Dəlləkli | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 51. | Dəymədağlı | Şrvenants | Qafan | 03.01.1935 |
| 52. | Dortnu | Antaraşat | Qafan | 29.06.1949 |
| 53. | Dovrus | Davrus | Qafan | 04.07.2006 |
| 54. | Əcili | Siyahıdan silinib | Qafan | 1950-ci illər |
| 55. | Əkərək | Aqarak | Qafan | 1950-ci illər |
| 56. | Gərd | Kard | Qafan | 09.04.1991 |
| 57. | Gığı | Geği | Qafan | 1950-ci illər |
| 58. | Güdgum | Geğanuş | Qafan | 29.06.1949 |
| 59. | Həçəti | Voçeti | Qafan | 1950-ci illər |
| 60. | İncəvar | Siyahıdan silinib | Qafan | 1930-cu illər |
| 61. | Kavart | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 62. | Kilsəkənd | Sraşen | Qafan | 09.04.1991 |
| 63. | Kirs | Kiçk | Qafan | 04.07.2006 |
| 64. | Kurud | Karud | Qafan | 04.07.2006 |
| 65. | Kürdkəndi | Lernadzor | Qafan | 25.05.1967 |
| 66. | Qacaran | Kacaran | Qafan | 04.07.1951 |
| 67. | Qarabaşlar | Siyahıdan silinib | Qafan | 1930-cu illər |

*Cədvəlin davamı*

| | | | | |
|---|---|---|---|---|
| 68. | Qaraçimən | Ditsmayri | Qafan | 03.04.1991 |
| 69. | Qatar | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 70. | Qovşud | Kavçut | Qafan | 09.04.1991 |
| 71. | Quşçular | Siyahıdan silinib | Qafan | 1950-ci illər |
| 72. | Mahmudlu | 1.Çaykənd<br>2.Bağavank<br>3. Gedişen | Qafan | 01.06.1940<br>1991-ci ildən sonra<br>04.07.2006 |
| 73. | Mağavuz | Kaxnut | Qafan | 29.06.1949 |
| 74. | Molla Uruzbəy Binəsi | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 75. | Mollalı | Siyahıdan silinib | Qafan | 1930-cu illər |
| 76. | Muçes Novruzlu | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 77. | Mülkuçan | Erkenants | Qafan | 03.02.1947 |
| 78. | Oxçu | Siyahıdan silinib | Qafan | 1940-cı illər |
| 79. | Pəyhan | Nor Astğaberd | Qafan | 04.07.2006 |
| 80. | Pirdavudan | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 81. | Pirməzrə | Katnarat | Qafan | 29.06.1949 |
| 82. | Pürülü | Verin Geğavank | Qafan | 04.07.2006 |
| 83. | Seyidlər | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 84. | Səncəravaz | Siyahıdan silinib | Qafan | 1930-cu illər |
| 85. | Sirkətas | Xdrants | Qafan | 1930-cu illər |
| 86. | Siznək | Snak | Qafan | 1930-cu illər |
| 87. | Şabadin | Yeğek | Qafan | 09.04.1991 |
| 88. | Şirvanşahlı | Məhv edilib | Qafan | 1918-20-ci illər |
| 89. | Şıxovuz | Şikaxox | Qafan | 1930-cu illər |
| 90. | Şotalı | Siyahıdan silinib | Qafan | 1930-cu illər |
| 91. | Təcəddin | Siyahıdan silinib | Qafan | 1930-cu illər |
| 92. | Turabxanlı | Siyahıdan silinib | Qafan | 1930-cu illər |
| 93. | Yuxarı Girətağ | Verin Qirataq | Qafan | 1991-ci ildən sonra |
| 94. | Yuxarı Gödəkli | Vardanank | Qafan | 04.07.2006 |
| 95. | Yuxarı Yeməzli | Siyahıdan silinib | Qafan | 1930-cu illər |
| 96. | Zeyvə | David-Bek | Qafan | 29.06.1949 |
| 97. | Meğri rayonu üzrə | | | |
| 98. | Aldərə | Alvank | Meğri | |
| 99. | Qarçıvan | Karçevan | Meğri | |
| 100. | Maralzəmi | Txkut | Meğri | |
| 101. | Nüvədi | Nrnadzor | Meğri | |
| 102. | Seyidlər | Vardanidzor | Meğri | |
| 103. | Vəng | Vank | Meğri | |
| 104. | Puşgah | Aygedzor | Meğri | |
| Sisian rayonu üzrə | | | | |
| 105. | Ağkənd | Aşotavan | Sisian | 17.04.1948 |
| 106. | Ağai | Məhv edilib | Sisian | 1918-ci il |
| 107. | Ağudi | Aqitu | Sisian | 09.04.1991 |
| 108. | Alışar | Siyahıdan silinib | Sisian | 1938-ci il |
| 109. | Bazarçay | Qorayk | Sisian | 1991-ci il |

*Cədvəlin davamı*

| | | | | |
|---|---|---|---|---|
| 110. | Bəhrili | Məhv edilib | Sisian | 1918-ci il |
| 111. | Comartlı | Tanahat | Sisian | 09.04.1991 |
| 112. | Dərəbas | Darbas | Sisian | 10.09.1946 |
| 113. | Dulus | Tolors | Sisian | 03.07.1968 |
| 114. | Əlili | Salvard | Sisian | 03.01.1935 |
| 115. | Əngələyurd | Angelaut<br>Anqexakot | Sisian | 03.07.1968 |
| 116. | Ərəfsə | Arevis | Sisian | 03.07.1968 |
| 117. | Əriklı | Məhv edilib | Sisian | 1918-ci il |
| 118. | Hortuyüz | Məhv edilib | Sisian | 1918-ci il |
| 119. | İrimis | Məhv edilib | Sisian | 1918-ci il |
| 120. | Qalacıq | Məliklərlə birləşdirilib Spandaryan | Sisian | 04.05.1939 |
| 121. | Qarakilsə | Sisavan / Sisian | Sisian | 02.03.1940 |
| 122. | Qıvrax | Siyahıdan silinib | Sisian | 1938-ci il |
| 123. | Qızılcıq | İşxanasar | Sisian | 09.04.1991 |
| 124. | Qurdlar | Məhv edilib | Sisian | 1918-ci il |
| 125. | Lor | Məhv edilib | Sisian | 1918-ci il |
| 126. | Məliklər | Spandaryan | Sisian | 04.05.1939 |
| 127. | Məzrə | Bartsravan | Sisian | 10.09.1946 |
| 128. | Murğuz | Tsğuni | Sisian | 1938-ci il |
| 129. | Pulkənd | Məhv edilib | Sisian | 1918-ci il |
| 130. | Püsək | Siyahıdan silinib | Sisian | 1938-ci il |
| 131. | Saybalı | Sarnakunk | Sisian | 10.09.1946 |
| 132. | Sisian | Hatsavan | Sisian | 02.03.1940 |
| 133. | Sofulu | Njdeh | Sisian | 09.04.1991 |
| 134. | Şam | Şamb | Sisian | 1918-ci il |
| 135. | Şenatağ | Lernaşen | Sisian | 02.03.1940 |
| 136. | Şələk | Şaqat | Sisian | 1918-ci il |
| 137. | Şıxlar | Qizılşəfəq<br>Torunik | Sisian | 02.03.1940<br>09.04.1991 |
| 138. | Şükar | Məhv edilib | Sisian | 1918-ci il |
| 139. | Təzəkənd | Tazagyuğ<br>Tasik | Sisian | 1905-ci il<br>03.07.1968 |
| 140. | Urud | Vorotan | Sisian | 03.07.1968 |
| 141. | Uz | Uyts | Sisian | 09.04.1991 |
| 142. | Vağədi | Vağadin | Sisian | 1991-ci ildən sonra |
| 143. | Zabazadur | Məhv edilib | Sisian | 1918-ci il |

Bu mövzu ilə bağlı bəzi məlumatlar S.V.Xarmandaryanın “Lenin və Zaqafqaziya Federasiyasının yaranması (1921-1923)” monoqrafiyasında vardır [19]. Amma ümumilikdə bu kitab Z.Balayanın “Ocaq” əsərindən qat-qat təhlükəlidir. Təəssüflər olsun ki, bu dövrdə fəaliyyət göstərən Azərbaycanın tanınmış alimləri Xarmandaryanın SSRİ-də xalqlar “dostluğunun” inkişafının ən qızğın çağında – 1969-cu ildə nəşr olunmuş bu əsərinə cavab verməkdən çəkinmişlər. Kitabda Qarabağ və Zəngəzurla bağlı yanlış təfsir edilmiş materiallarla yanaşı, həm Azərbaycan, həm də bütün Cənubi Qafqazla bağlı həyasızcasına

saxtalaşdırılmış çoxlu məlumatlar var. Ancaq bu mövzu ilə bağlı fikir söyləmək ayrıca, daha geniş bir məsələnin gündəmə gətirilməsi üçündür.

Biz İrəvan Dövlət Universiteti tərəfindən 1980-ci ildə nəşr olunmuş "Erməni xalqının tarixi" («История армянского народа») kitabı ilə də maraqlandıq, lakin Zəngəzur faciəsinin dəhşətləri barədə heç bir məlumata rast gəlmədik. Bu kitabda belə şeylər yoxdur. Elə bil ki, ümumiyyətlə Zəngəzur faciəsi heç olmayıb.

Bu məqaləni yazmaqla biz heç də Azərbaycan tarixşünaslığında Zəngəzur faciəsi ilə bağlı mövcud boşluğu doldurmaq iddiasında deyilik – çox ciddi olan belə bir mövzuya cildlərlə kitablar həsr etmək lazım gələcək. Biz isə sadəcə olaraq həm tədqiqatçıların, həm də geniş ictimaiyyətin diqqətini bu faciəyə daha yaxından cəlb etmək istəyirik. Şimali Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törədilmiş çoxsaylı cinayətlərin əsası Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin ikinci günündə yeni yaradılmış qonşu dövlətə yardım etmək istəyən **Azərbaycan Milli Şurasının "1918-ci il mayın 29-da İrəvanı Ermənistana verməsindən, ardınca onun paytaxt edilməsindən"** [10, s. 51] sonra başlanmışdı, hərçənd müstəqillik dövründə Azərbaycan Xalq Cümhuriyyətinin heç öz paytaxtı da yox idi. Ermənilər isə Azərbaycan hökumətinin xoşməramlılığına cavab olaraq iştahaları daha da böyük həddə coşdu və ölkəmizin çox böyük mahallarını – bütünlüklə Göyçə, Şərur-Dərələyəz, Naxçıvan, Zəngəzur, Qarabağ və digər rayonları ələ keçirmək üçün Azərbaycana ərazi iddiaları irəli sürdülər. Bu bölgələrin erməni əhalisinin gizli yolla hərbi texnika və silahlar əldə edir, öz çoxsaylı hami-fəzilətlərinin xeyir-duası ilə hər fürsət düşəndə yerli müsəlman əhaliyə qarşı düşmənçilik və zorakılıq nümayiş etdirir, xəlvəti məqamlarda isə onları öldürürdülər.

Zəngəzur qəzası müsəlmanlarının vəziyyəti Şimali Azərbaycanın digər bölgələri ilə müqayisədə daha da pisləşdi ki, bu qəzada erməni kəndlilərinin silahlı dəstələri ilə yanaşı, Andranik Ozanyanın başçılıq etdiyi ermənilərdən ibarət kifayət qədər təlim görmüş və dırnağadək silahlanmış hərbi qüvvəsi vardı və silahlı qüvvənin Türkiyədə silahsız və köməksiz dinc əhaliyə qarşı müharibə aparmaq təcrübəsi var idi. Erməni döyüşçülərindən və tam silahlanmış erməni kəndlilərindən ibarət böyük canlı qüvvəyə malik olan Andranik 1918-ci ilin yayında Şimali Azərbaycanın sərhədlərini keçməklə Naxçıvan və Zəngəzur ərazilərinə soxularaq, hər ehtimala görə Ermənistan Respublikası hökumətindən aldığı konkret göstərişləri həyata keçirmək üçün müsəlman əhalini ya ermənilərin hakimiyyətinə tabe etdirməli, ya da bu əraziləri Ermənistan Respublikasına daxil etmək üçün müsəlmanlardan təmizləməli, yəni onları bütünlüklə qırmalı idi.

ADR Fövqəladə İstintaq Komissiyasının üzvü və digər yerlərlə yanaşı Zəngəzur qəzasını da tədqiq edən Mixaylovun rəsmi məlumatına görə, rayonun silahsız müsəlman əhalisi bütün xarici aləmlə əlaqəsinin kəsilməsinə baxmayaraq, Andranik və onun əlaltılarının təslim olmaq barədə ultimatumlarını qəti şəkildə rədd ediblər. Bu, bölgənin müsəlman əhalisinin tamamilə məhv edilməsinə bəhanə olmuşdu [11, s. 1-9]. Eyni zamanda ermənilər rast gəldikləri müsəlmanlara qarşı dəhşətli qəddarlıq nümayiş etdirirmişlər. Ermənilər cins və yaş fərqi qoymadan insanları öldürür, hətta südəmər körpələrə belə aman vermədən müxtəlif və qəribə üsullara əl atırmışlar. Belə bənzər səhnəni biz Birinci Qarabağ müharibəsi zamanı uşaqların divara mıxlanması, müxtəlif əzalarının kəsilib, yan-yörəsinə vurulması hallarında gördük. Ermənilər bütün kəndləri yandırır, sonra da şumlayırmışlar, mal-qaranı oğurlayır, evlərdə olan hər şeyi yığıb aparırmışlar. Ermənilərin bu vəhşiliyi ilə müqayisədə, Üçüncü Reyx faşistlərinin nasist vəhşiliyi "yüzlərlə dəfə sivil görünür". Qərb sivil dünyası bu qəddarlığı, Qarabağda olduğu kimi, daxildən görməsə, o vəhşiliyi anlaya bilməz. Erməni vəhşiliyinin nə olduğunu ancaq öz acı təcrübəsi ilə "mehriban qonşuluq"da başına gələnlərin dadına baxmış adamlar bilər. Faktlara müraciət edək: **Zəngəzur qəzasının rəisi 1918-ci il sentyabrın 12-də 3 saylı hesabatında Andranikin komandanlığı altında ermənilərin Rut,**

**Dərəbas, Ağudi, Vağudi, Ərikli, Şükar, Məlikli, Pulkənd, Şəki, Qızılcıq, İrimiş, Paxlalı, Dərəbas, Qurdlar, Xotanan, Sisian, Zabazadur kəndlərinin darmadağın edilməsi, Qara Kilsənin müsəlmanların yaşadığı hissəsinin yandırılması haqqında məlumat verir** [bax: 13, s. 85]. 1918-ci ilin avqustunda Andranikin başçılığı ilə ermənilər daha bir görünməmiş cinayət törətdilər: Onlar Hortuyüz ("Orta Oğuz" sözündən ola bilir – müəlliflər) kəndini tamamilə yerlə-yeksan etmişdilər. O günlərin canlı şahidləri Haqverdi Yaqubov və İslam Sadıxovun verdiyi məlumata görə, sözün əsl mənasında saat yarım ərzində 183 nəfər həlak oldu.* Sonralar Andranikin dəstəsinin əhalisini məhv etdikləri Uz kəndinə köçən sərxoş erməni yaraqlılarından biri xatirələrini danımaqla öyünərək bildirmişdi: “Avqustun 19-da Andranik özü şəxsən Hortuyüzlə üzbəüz Cilingər adlanan yerə gəlib sabahkı əməliyyatın keçiriləcəyi əraziyə baxdı və gecə saatlarında Qaragüney dağında on pulemyotlu döyüşçünü yerləşdirməyi əmr etdi. Onlar məhz bu yüksəklikdən kəndi atəş altında saxlayır, heç kimin qaçmasına imkan vermirdilər. Kənd əhalisi qırılan kimi ermənilərdən ibarət olan qonşu Təzəkəndin oğru sakinləri dağıdılmış Hortuyüzə doluşdular, kəndin evlərində əllərinə keçən nə vardısa, hamısını daşıyıb apardılar. Bunların ardınca kəndə daxil olan erməni süvariləri kənddə sağ adam qalmadığını bildirdilər”.

Onu da əlavə edək ki, ermənilər bu dəhşətli cinayəti gizlətmək məqsədilə sonralar bu kəndi tamamilə talan etmiş, ərazisini şumlayaraq tütün əkmişlər. Bunun isə simvolik mənası var, mənasını ancaq ermənilər və azərbaycanlılar başa düşə bilər.

Qeyd edək ki, həmin sərxoş qoca erməninin dediyinə görə, Andranik bu kəndləri XIX əsrin birinci yarısında Rusiya tərəfindən buraya köçürülmüş və Təzəkənddə yerləşdirilmiş “yerli”, yəni “Zəngəzur” ermənilərinin xahişi ilə dağıdıb. Ermənilərin buraya XIX əsrdə köçürülməsini təsdiq edən amillərdən biri də buradakı erməni kəndlərinin adları bağlıdır. Düzdür, sonralar ermənilər kəndlərin türk adlarını gizlətmək üçün dəfələrlə türk adları olan erməni kəndlərinin adlarını dəyişdirilib. Məsələn, sovet hakimiyyəti illərində qonşuluqdakı həmin Təzəkəndin adını dəyişib Tazagyuğ (erməni dilindən hərfi tərcümədə – taza – yeni, gyuğ – kənd) qoymuşdular, 1968-ci ildə isə kəndin adını yenidən dəyişərək Tasik qoymuşdular. Əlili kəndinin adını dəyişib Allu, daha sonra Salvard qoymuşdular. Ağkəndin adını dəyişib Aşotavan, Sisianın adını dəyişib Hatsavan, Qarakilsənin adını dəyişib Sisavan, sonra isə Sisian qoymuşdular və s.*

Qubernator Məliknamazəliyev digər hesabatlarında bildirirdi ki, ermənilər Andranikin burada olmasından istifadə edərək, tez-tez müsəlman kəndlərinə hücum edir, cinsindən və yaşından asılı olmayaraq, hamını qarət edir və qətlə yetirirdilər. Beləliklə, onlar aşağıda adları çəkilən kəndləri də dağıdıb, yandırdılar: **Ərəfsə, Lehvaz, Tey, Mülk, Gül, Bənövşə, Puş, Tağamir, Birinci Vartanazur, Tuğut, İkinci Vartanazur, Ağai, Dərkli, Razdərə** və s. Qeyri-insani ermənilər qadınları, qocaları və uşaqları vəhşicəsinə qətlə yetirir, meyitləri ələ salır, qadınların döşlərini kəsib, körpələrin ağzına qoyur, sonra isə onları qılıncla yarıya bölürdülər. Bir çox yerlərdə kişiləri nallayır, çılpaq kürəklərinə qaynar samovar bağlayır, əsir düşən qadınları isə erməni döyüşçüləri arasında paylayırdılar. Bu yazıqların çoxu şərəfsizliyə dözə bilməyib intihar edirdilər [bu barədə daha ətraflı məlumat üçün bax: “Ermənilər və Ermənistan Respublikası qoşunları tərəfindən Qarabağın və İrəvan quberniyasının Gəncə quberniyasına bitişik rayonlarının müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlar haqqında Daxili İşlər Nazirliyinin İdarə materialları 1918-1919-cu illər üçün”, IV bölmə. 8, s. 129-134; 7, fond 1054 bütünlüklə]. Məsələn, Tat kəndinin dağıdılmasından sonra (indiki Laçın rayonu

* Onların xatirələrinin qeyd olunduğu kaset bizim sərəncamımızdadır.

* Bu kəndlərin adları tədricən erməniləşdirilib və indi belə səslənir: Qarakilsə – Sisian; Təzəkənd – Tazagyuğ (hərfi tərcümə), indiki adı Tasık – heç bir məna bildirmir; Ağkənd – Aşotavan; Uz – Uyts; Pirnəbi – Brnakot; Dulus – Tolors; Əlili – Salvard; Dərəbas – Darbas və s.

ərazisində) Xumar adlı qız Andranikin çadırına aparılarkən sərt döngədə gözlənilmədən yerdən götürdüyü daşı başına vuraraq dünyasını dəyişmişdi [1, 13 fevral 1992].

Ermənilərin belə davranışı hətta Zəngəzurda olan dostlarını – ingilis-fransız nümayəndə heyətinin üzvlərini də biganə qoya bilməzdi. Hətta bu nümayəndə heyəti belə vəhşicəsinə qan tökülməsinə son qoyulmasını tələb edirdi. Lakin bu nümayəndə heyəti Zəngəzuru tərk edən kimi ermənilər dərhal **dekabrın 10-dan Azərbaycan kəndlərinə qarşı yeni hücumlara başladılar** [bax: 13, s. 86]. Və bu, İngiltərə-Fransa missiyasının Gorusa ikinci gəlişindən sonra da bütün mahalda və həmin missiyanın gözləri qarşısında yenidən təkrarlandı. Dağıdılmış və yandırılmış kəndlərin sayına yenidən 30-dan çox kəndin adı əlavə edildi: Razdərə, Əsgərlər, Vəlilər, Kiçikli, Sobu, Aldərə, Mərzigit, Tuğut, Nüvədi, Eynəzir, Quşçulu, Acılı, Arkazu, Əksərli, Şəhərcalan, Açağuz, Oxçu, Şəbədin, Giratağ, Mollalı, Növnü, Qarabaği, Qabarlu, Kiçi, Başbaşı, Mahmudlu, Keypəşin, Kağaçatu, Kürürüt, Qaçyap, Kirs, Acıbac və s. [13, s. 87-88].

Edilənlərdən dəhşətə gələn ermənilər bütün bu gördüklərinə görə Andraniki və onun dəstəsini günahlandırırdılar. Zəngəzur faciəsində ən mühüm rol oynayanlardan biri Andranik idi və onun bu vəhşi fəaliyyəti hələ də, o cümlədən bizim də tərəfimizdən tam öyrənilməmişdir. Bu cinayətdə Rusiyanın, Ermənistanın və Birinci Dünya Müharibəsinin qalibləri sayılan müttəfiq ölkələrin və Andranikin özünün birlikdə hansı rolları olduğunu qısaca nəzərdən keçirməyə çalışaq.

Əvvəlcə Rusiya haqqında. Yuxarıda Ermənistanın adı çəkilən baş naziri O.Kaçaznuninin fikrincə, ermənilər "qeyd-şərtsiz olaraq Rusiya yönümlüdürlər" [16, s. 12]. Çünki onlar keçmişdə və sonrakı dövrlərdə daha çox özləri müəlliflik və təşəbbüskarlıq etməyib, daha çox özlərindən asılı olmayaraq yaradılan cərəyanın və hadisələrin davamçısı olmuşlar [16, s.11]. XIX əsrin sonlarında, 1903, 1905-1906, 1918-1920-ci illərdə və s.-də də belə idi. O.Kaçaznuni bu cür deməkdə haqlıdır ki, ermənilərin türklərə qarşı hərəkətləri "demək olar ki, əsrin az qala yarısı qədər dövrdə erməni xalqının beyninə ruslar tərəfindən hopdurulmuş psixologiyanın təbii və qaçılmaz nəticəsi idi... Amma partiyamız ("Daşnaksütyun" – E.M., Y.B.) bu hərəkatın əleyhinə çıxıb, öz xəttini davam etdirmək qabiliyyətinə malik deyildi, ən azı ona görə ki, özü də güclü instinktə, lakin zəif şüura malik kütlə idi" [16, s. 11].

Ermənilər arasında rus oriyentasiyası, əsasən şifahi və yalnız ermənilər üçün əlçatan olan özünəməxsus təbliğat üsulları ilə dəstəklənirdi. Əslində heç ruslar da görünə və duyula biləcək bir "iz" qoymurdular. Məsələn, 1915-ci ildə Qafqaz qubernatoru Vorontsov-Daşkovun katolikoslara bəzi tələblərlə bağlı müraciətləri də müəmmalı şəkildə onlara fərqli sözlərlə ağızdan-ağıza çatdırılırdı. "Eyni zamanda, onun ustalıqla tərtib etdiyi məktubunda isə ümumi və çox qeyri-müəyyən fərziyyələrdən başqa heç nə olmurdu və məktubun məzmununu istənilən mənaya, istənilən istiqamətə yozmaq mümkün olurdu" [16, s. 12].

Hələ 1918-ci ilin martında daşnak liderlərindən biri olan A.Xatisyan Tiflisdə menşeviklərin və eserlərin iştirakı ilə çağırdığı müşavirədə İrandan qayıdan rus qoşunlarını tərksilah etməyi təklif etmişdi. Bunu eşidən Andranik Ozanyan Rusiyanın tərəfini saxlayaraq demişdi: "Rus əsgərlərini niyə tərksilah etmək istəyirsiniz? ... Axı Rusiya (Sovet – E.M., Y.B.) bizim üçün burada çoxlu silah və sursat, ərzaq və geyim saxlayıb" [4, s.49].

Rusiya da öz növbəsində Andraniki müdafiə edib, haqqında təbliğat aparırdı. Məsələn, "İzvestiya" qəzetinin 26 iyul 1918-ci il tarixli sayında "Andranik" sərlövhəli məqalə dərc olunmuşdu və burada bildirilirdi ki, "**erməni xalqının lideri Andranikin sovet oriyentasiyası (?!) Sovet hakimiyyətinin böyük qələbəsidir**" (seçmə bizimdir – E.M., Y.B.).[*] Təbii ki, belə bir məqalənin dərci ilk növbədə Rusiyanın və Cənubi Qafqazdakı bəzi

[*] Amma bəlli deyil ki, nə üçün Sovet təmayüllü Andranik ömrünün qalan hissəsini Sovetlər ölkəsində keçirmək

dairələrin maraqlarını ifadə edir, onların kimliyini göstərirdi. Təbii ki, onun nəşrində A.İ.Mikoyan müəyyən rol oynayıb və İ.X.Baqramyanın bildirdiyinə görə, "o, bir müddət Andranikin "komandası"nda qəhrəmancasına vuruşmuşdu" [5, s. 18].

Rusiyanın istər bolşevik, istər menşevik, istərsə də çar hökuməti olsun, hamısı həm bütün ermənilərə, həm də konkret olaraq quldur Andranikə müsəlman türklərə qarşı savaşlarında müxtəlif yollarla maddi və mənəvi yardım göstərmişlər. Cənubi Qafqazın ən mötəbər qəzetlərindən olan «Грузия» 1919-cu ilin yanvarında Andranikin nağd subsidiyaları haradan götürdüyünə aydınlıq gətirən son dərəcə maraqlı "Andranik hansı vəsaitlərlə işləyir?" adlı bir sənədin fotosurətini dərc etmişdi.

Andranikin imzaladığı həmin sənədin tam mətnini təqdim edirik:

700 saylı erməni
xüsusi zərbə dəstəsinin rəisi
10 dekabr 1918-ci il

Zati-aliləri
General Biçeraxova

"Bakıdan gələn Zəngəzur Erməni Milli Şurasının üzvləri Arşak Şiranyan və Nikolay Osipov bizə bir milyon rubl (1.000.000) verdilər və bunun üçün imzalarını bizdə qoydular. Şuranın yuxarıda adları çəkilən üzvləri mənə dedilər ki, bu pulu Siz general Baqratuninin vəsatəti ilə vermisiniz. Mən Sizə dəstəmi və bədbəxt qaçqınları unutmadığınıza görə öz dərin və səmimi minnətdarlığımı bildirirəm.

General-mayor (Andranikin imzası)
İkibaşlı qartallar rəsmi olan möhür və möhürdə
rusca yazılmış "Erməni zərbə dəstəsi"" [12].

Bu sənədlə bağlı təfərrüatlı şərhlərə varmadan yalnız onu qeyd etmək istəyirik ki, Andranik öz fəaliyyəti ilə bağlı həmişə ruslardan müvafiq göstərişlər alıb və bir vaxtlar isə bu işdə ona hamının yaxşı tanıdığı fırıldaqçı S.G.Şaumyan vasitəçilik xidməti göstərib" [bu barədə "Bakinski raboçi" qəzetində çap olunmuş teleqramlara baxın: 6].

Ümumiyyətlə, ruslar, ingilislər və fransızlar erməni-hayları həmişə istiqamətləndirirdilər. Hətta Zəngəzurun ermənilərə (Ermənistana) verilməsi təklifini də İngiltərənin xarici işlər naziri lord Kerzon Azərbaycanın Türkiyə ilə birbaşa əlaqələrinin kəsilməsi üçün tələb etmişdir və sovet hakimiyyəti də az sonra bunu xalqımızın qatı düşmənləri olan Stalin və Orconikidzenin əli ilə rəsmiləşdirmişdi.

Andranikin bolşeviklərin timsalında ruslarla əlaqələrinin daha bir sübutu kimi 1920-ci ilin yanvarında Lənkəran bolşevik dəstəsində xidmət zamanı öldürülmüş Zəngəzur dəstəsinin zabitlərindən Andrey Tevosov və Vahan Kamarovun adına yazılmış tapılan sənədlər göstərmək olar [bax: 9, s. 14].

"Азербайджан" qəzetinin 1919-cu il 7 yanvar saylı nömrəsində bildirilirdi ki, "Bütün bu dəhşətləri yaradan Andranik ingilislərdən (?!) sifariş aldığını müsəlmanlara elan etmişdi" [3].

Onu da qeyd edək ki, XX əsrin əvvəllərində ermənilər çox vaxt müxtəlif ölkələrdə qalmaqallı mövzularda məqalələr sifariş edir və onların köməyi ilə müəyyən məsələləri öz xeyirlərinə həll etməyə çalışırdılar.

Beləliklə, həm bolşeviklərin, həm ağqvardiyaçıların, həm də digərlərinin Cənubi Qafqazda bir ümumi rus maraqları var idi ki, onlar bu maraqların müdafiəsi xətrinə ermənilərdən itaətkar alət kimi istifadə edirdilər. Ermənilər isə kənardan göründüyü qədər də sadəlövh deyildilər. Onlar da öz maraqlarını və planlarını qorumaq və həyata keçirmək

istəməyib, 1919-cu ildə əvvəlcə Fransaya, sonra isə ABŞ-a qaçıb və orada da ölüb (daha sonra onun ölüsünün qalıqları Fransaya gətirilərək Pere Lachaise qəbiristanlığında təkrar basdırılıb).

məqsədi ilə öz milli nümayəndələrini qruplar şəklində mövcud olan bütün cərəyanlarda, partiyalarda, qurumlarda, bolşeviklərin, qeyri bolşeviklərin və digərlərinin dəstələrində çox fəal şəkildə təmsil etdirirdilər [16, s. 20]. Məhz onlar ruslardan bir alət kimi istifadə edərək, onların köməyi ilə 1918-ci ilin mayında Azərbaycan torpaqları hesabına indiyədək heç vaxt mövcud olmayan erməni dövləti yaratmağa nail oldular.

Andranik heç vaxt gizlətmədiyi ermənipərəst mövqeyi ilə məşhur olan general Denikinin özü ilə də birbaşa əlaqəli idi. Daşnakların Denikin ordusunun komandanlığında polkovnik Vlasovun simasında öz hərbi nümayəndəsi var idi, Andranik isə yasavul Bortun vasitəsilə Denikinlə əlaqə saxlayırdı [20, s. 5].

Beləliklə, antitürk əməkdaşlığı sahəsində ermənilərlə rusların münasibətləri bütün səviyyələrdə inkişaf edirdi.

Bu isə o demək idi ki, ermənilər rusların vasitəsilə bütün Avropada hay-küy salmağa nail olur, böyüklərin qapısını döyərək Andranikin qruplaşmasının, eləcə də bütün daşnakların cinayət əməllərinə haqq qazandırmağa çalışırdılar.

Təqdim olunan qısa materialdan da göründüyü kimi, ermənilər rus layihələrini həyata keçirərək, Zəngəzurda vəhşiliklər törətmiş, rus silahları ilə günahsız müsəlman azərbaycanlıları qətlə yetirmiş, özləri də Rusiyanın ianələri hesabına mövcud olmuşlar. Nəticədə yüzlərlə kənd yandırılmış, minlərlə insan həlak olmuşdu. Ancaq hələ də tarix yenə təkrarlanır!

## ƏDƏBİYYAT


1. Xalq qəzeti, 1992, 13 fevral.
2. Аббасов Э. Зангезур. Роман в 2-х книгах [пер. с азерб.]. Баку: Детюниздат, 1959.
3. Азербайджан, 1919, 7 января, № 5.
4. Агаян Ц.П. Победа Советской власти и возрождения армянского народа. Москва: Мысль, 1981. 256 с.
5. Баграмян И.Х. Мои воспоминания. Ереван: Айастан, 1979. 664 с.
6. Бакинский рабочий, 1918, 14 июня.
7. Балаев А.Г. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку: Елм, 1990. 280 с.
8. ГААР, ф. 1054. Все описи.
9. ГААР, ф. 894, оп. 4, д. 119, л. 14.
10. ГААР, ф. 970, оп. 1, д. 1, л. 51.
11. ГААР, ф. 970, оп. 10, д. 161, л. 1-9.
12. Грузия, 1919, 29 января, №22.
13. Известия АН Азербайджана. Серия истории, философии и права, 1989, № 4.
14. История человечества. Всемирная история, т. 3. Санкт-Петербург, 1904.
15. Канцелярские дела Министерства Внутренних Дел о насилиях, чинимых над мусульманским населением Гарабаха и смежных с Гянджинской губернией уездов Эриванской губернии, армянами и войсками Армянской Республики за 1918-1919 гг.», IV отд. ГААР, ф. 894, оп. 4, д. 65, л. 129-134.
16. Качазнуни Ов. Дашнакцутюн больше нечего делать. Баку: Элм, 1990. 92 с.
17. Лалаян А. Контрреволюционный «дашнакцутюн» и империалистическая война 1914-1918 гг. Известия АН Азербайджанской ССР, Серия истории, философии и право, 1989, № 4.
18. Собрание актов, относящихся к обозрению истории армянского народа, т. 2. Москва: В Тип. Лазаревых Института Восточных языков, 1838. 504 с.
19. Хармандарян С.В. Ленин и становление Закавказской федерации (1921-1923 гг.). Ереван: Айастан, 1969. 456 с.

20. Шахдин И. Дашнакцутюн на службе русской белогвардейщины и английского командования на Кавказе… Баку: Изд-во “Ayulduz”, 1990. 42 с.

УДК 94

*Э.А.Магеррамов, Я.А.Бахрамов*
*Институт Истории им. А.А.Бакиханова НАНА*

## О ЗАНГЕЗУРСКОЙ ТРАГЕДИИ (1918-1919)
### *РЕЗЮМЕ*

*Ключевые слова:* Зангезур, Хортуюз, Забазадыр, Софулу, Рут, Деребас, Агуди, Вагуди, Арикли, Шукар, Маликли, Пулкенд, геноцид

В статье приведены краткие сведения о депортации и геноциде тюрков-мусульман (азербайджанцев) Зангезурского уезда в 1918-1919 годах различными частями регулярной армии армян, вооруженными Республикой Армения и Россией. Зангезурская трагедия 1918-1920 годов не закончилась только депортацией мусульманского населения. Ужасами этой трагедии было массовое, несмотря на возрастные ограничения, истребление местного населения армянами, которых русские переселили в Азербайджан в XIX веке и вооружили. Их главной целью было подвергнуть безоружное азербайджано-тюркское население истреблению, национальному геноциду. В годы советской власти на эту тему не только не разрешалось писать, но даже запрещалось говорить. Однако, хотя исследования в этой области проводились после обретения Азербайджаном независимости, по-прежнему существует большая потребность в изучении многих вопросов. Однако, хотя исследования в этой области проводятся с момента обретения Азербайджаном независимости, по-прежнему существует большая потребность в изучении многих вопросов. Одним из важнейших факторов, осложняющих расследование темы, является принудительная передача в Армению архивных документов, связанных с Зангезуром, по требованию Москвы. Кроме того, до 1980-х годов большую часть работающих в архивах людей составляли русские и армяне. Они также сжигали документы, написанные арабским алфавитом, и превращали их в макулатуру. Таким образом, исследования ученых искусственно усложнялись и тормозились. Помимо вооруженных групп жителей армянских сел в Зангезурском уезде действовала хорошо обученная и хорошо вооруженная военная группировка армян под руководством Андраника Озаняна, имевшего опыт ведения войны против беспомощного мирного населения в Турции. Они вырезали население многих сел Зангезура и разрушали их дома. В Зангезуре армяне получали необходимые инструкции от российских и англо-французских советников.

UDC 94

*E.A.Maharramov, Y.A.Bahramov*
*Institute of History of Azerbaijan National Academy of Sciences*

## ABOUT ZANGEZUR TRAGEDY in 1918-1919
*SUMMARY*

*Key words:* Zangezur, Hortuyuz, Zabazadyr, Sofulu, Ruth, Derebas, Agudi, Vagudi, Arikli, Shukar, Malikli, Pulkend, genocide

The article provides brief information about the deportation and genocide of the Muslim Turks (Azerbaijanis) of the Zangezur district in 1918-1919 by various units of the regular army of Armenians armed by the Republic of Armenia and Russia. The Zangezur tragedy of 1918-1920 did not end only with the deportation of the Muslim population. The horrors of this tragedy were the extermination of the local population, regardless of age or sex by the Armenians, whom the Russians transferred to Azerbaijan in the 19th century and armed. Their main goal was to subject the unarmed Azerbaijani-Turkish population to extermination national genocide. During the years of Soviet power, not only was it not allowed to write on this topic, but it was also forbidden to speak. However, although researches in this field have been carried out after Azerbaijan gained its independence, there is still a great need to investigate many issues. One of the most important factors complicating the investigation of the topic is the forced transfer of archival documents related to Zangezur to Armenia at the request of Moscow. In addition, until the 1980s, most of the people working in the archives were Russians and Armenians. They also burned documents written in the Arabic alphabet and turned them into waste paper. Thus, the research of scientists was artificially complicated and hindered. In addition to the armed groups of Armenian villagers, a well-trained and well-armed military group of Armenians operated in the Zangezur district under the leadership of Andranik Ozanyan, who had experience in waging war against the helpless civilian population in Turkey. They slaughtered the population of many villages of Zangezur and destroyed their houses. In Zangezur, the Armenians received the necessary instructions from Russian and Anglo-French advisers.

***Daxil oldu: 13.02.2024-cü il***